

# Bədii gimnastlarımız İslamiadanın liderləridir

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında bədii gimnastika üzrə yarışlara yekun vuruldu. Ölkəmizi Oyunlarda bədii gimnastlar Marina Durunda, Jalə Piriyeva, və Zöhrə Ağamirova təmsil edirdilər.



Xatırladaq ki, İslam Həmrəyliyi Oyunları çərçivəsində gimnastikanın üç növü üzrə - bədii gimnastika, qadın və kişi idman gimnastikası üzrə yarışlar keçirilir. Proqrama əsasən 12 və 13 may tarixlərində bədii gimnastika üzrə təsnifat mərhələləri, 14 may tarixində isə ayrı-ayrı alətlər üzrə finallar baş tutub. İdman gimnastikası üzrə təsnifat günləri 13 və 14 may, ayrı-ayrı alətlər üzrə finallar isə 15 may tarixində olmuşdur. Bu mötəbər yarışda gimnastika üzrə ümumilikdə 15 ölkədən olan idmançı çıxış edir.

*Ardı 2-ci səh.*






# Bədii gimnastlarımız İslamiadanın liderləridir



Əvvəli 1-ci səh.

Azərbaycan gimnastları Marina Durunda təsnifat mərhələsində halqa ilə hərəkətlərdə 16.750 bal toplayaraq birinci pilləni, Jalə Piriyeva isə 16.300 balla ikinci nəticə göstərərək final mərhələsinə yüksəldilər. Topla hərəkətlərdə də M.Durunda və J.Piriyeva təsnifatı lider olaraq bitirdilər. Marina 16.200, Jalə isə 16.000 bal topladılar.

Yarışın ilk günündə yığmamızın heyətində xalçaya çıxan Marina Durunda, Jalə Piriyeva və Zöhrə Ağamirovadan ibarət komanda iki hərəkətdən sonra 65.250 bal toplayaraq birinci yerdə, ikinci yerdə 62.100 balla Özbəkistan, üçüncü yerdə isə 51.300 balla Türkiyə qərarlaşdılar.

Mayın 14-də isə tamaşaçılar Milli Gimnastika Arenasında "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının bədii gimnastika üzrə fərdi final yarışlarını izlədilər. Gimnastlar fərdi yarışlarda gürzlər, lent, halqa və top ilə hərəkətləri yerinə yetirdilər.

Lentlə hərəkətlərdə Marina Durunda 15.450 xalla İslamiadada üçüncü çempionluğunu əldə etdi və qızıl medala layiq görüldü. Yarışda ikinci yeri isə Azərbaycan gimnastı Jalə Piriyeva tutdu. O, eyni xalla gümüş medala sahib oldu. Xatırladaq ki, bürünc medalı 14.950 xalla Özbəkistan gimnastı Sabina Taşkenbayeva qazandı.

Azərbaycan gimnastları ümumi hesabda yeddi medal qazandılar. Halqa ilə hərəkətlər üzrə fərdi yarışlarda 17.600 xal toplayan M.Durunda çempion oldu. Jalə Piriyeva 16.050 xalla üçüncü yeri tutdu. Gümüş medalı isə 16.450 xalla özbəkistanlı Anastasiya Serdyukova qazandı.

Gimnastımız Jalə Piriyeva topla hərəkətlər üzrə fərdi yarışlarda bütün rəqiblərini qabaqlayaraq 17.550 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Marina Durunda isə 15.800 xalla bürünc medala, Özbəkistan gimnastı Anastasiya Serdyukova 16.950 xalla ikinci yerə layiq görüldü.

Gürzlərlə yarışda gimnastımız Marina Durunda 16.550 xalla gümüş medal əldə edib. 16.900 xalla özbək gimnastı Anastasiya Serdyukova fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Üçüncü yeri isə 16.300 xalla digər özbək təmsilçisi Sabina Taşkenbayeva tutdu.

Bədii gimnastika yarışları başa çatdıqdan sonra mükafatlandırma mərasimi oldu. Medalları qaliblərə Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov və Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinatri Vatanabe təqdim etdilər.

Beləliklə, IV İslam Həmrəyliyi Oyunları çərçivəsində keçirilən bədii gimnastika yarışlarında gimnastlarımız 7 medal qazandılar. Onlardan 3-ü qızıl, 2-si gümüş və 2-si bürüncdür.

Azərbaycanda son illər gimnastikanın təbliği və inkişafı, ən müasir beynəlxalq standartlara uyğun gimnastika arenalarının tikintisi, idmançı və məşqçilərə göstərilən qayğı bu idman növünün inkişafına müsbət təsir göstərib. Azərbaycanda gimnastika sahəsində görülən işlər dünyada idmanın gimnastika növünün inkişafına böyük töhfə kimi dəyərləndirilir.

*Elnur HACALIYEV,*
*"Azərbaycan"*













**Azərbaycan.- 2017.- 16 may.- S. 1-2.**